# AZƏRBAYCAN RESPUBLİKASININ
# AUDİTORLAR PALATASI ŞURASININ
# QƏRARI

**Bakı şəhəri** **№383/4** **15 dekabr 2025-ci il**

**“Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən auditor xidməti göstərilən zaman ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqlərinin həyata keçirilməsi üzrə 2026-cı il üçün Plan-qrafik”in təsdiq edilməsi barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2025-ci il üzrə iş planının 5.2-ci “Auditor fəaliyyətində aşağıdakı istiqamətlər üzrə risk qiymətləndirməsinin həyata keçirilməsi: Cinayət yolu ilə əldə olunmuş əmlakın leqallaşdırılmasına qarşı mübarizə üzrə; Terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə” bəndinə əsasən aparılmış risk qiymətləndirilməsinin nəticəsinə və 5.10-cu “Sahəvi risk qiymətləndirməsinin nəticələrinə dair monitorinqlərin aparılması üzrə plan-qrafikin hazırlanması” bəndinə uyğun olaraq Auditin hüquqi tənzimlənməsi və cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə idarəsi (E.İbrahimov) tərəfindən təqdim edilmiş “Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən auditor xidməti göstərilən zaman ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqlərinin həyata keçirilməsi üzrə 2026-cı il üçün Plan-qrafik”in layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən auditor xidməti göstərilən zaman ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqlərinin həyata keçirilməsi üzrə 2026-cı il üçün Plan-qrafik” təsdiq edilsin (əlavə olunur).
2. Auditin hüquqi tənzimlənməsi və cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə idarəsinə (E.İbrahimov) tapşırılsın ki, 2026-cı il ərzində auditor təşkilatları və sərbəst auditorlar tərəfindən auditor xidməti göstərilən zaman ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqlərinin “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq vaxtında və keyfiyyətlə həyata keçirilməsi təmin edilsin.
3. Bu qərarın və “Auditor təşkilatları və sərbəst auditorlar tərəfindən auditor xidməti göstərilən zamanı ƏL/TMM qanunvericiliyinə riayət olunmasının monitorinqlərinin həyata keçirilməsi üzrə 2026-cı il üçün Plan-qrafik”in mətnləri Palatanın internet səhifəsində və “Auditorun şəxsi kabineti” sistemində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**